## *Müəllifin arxivindən*

# AZADLIĞIN CƏFƏR CABBARLI YOLU

Xızının ən gözəl məhəlləsində artıq yaz hiss olunurdu. Novruz ilə bahar gəlmişdi. Artıq 1899-cu ilin 20 martı idi. Belə bir yaz havası, belə bir yaz sevinci Xızıdakı daxmalardan birinə-Cabbarlı ailəsinin də daxmasına gəlmişdi.

Lakin, Cabbarlıların ailəsində həmin gün birqat deyil, ikiqat bayram idi. Kömürçü Qafar kişinin qucağında təzə doğulmuş uşağı-körpə Cəfər var idi. Uşağın adını Cəfər qoymuşdu. Bu uşaq ortabab yaşayan bir ailənin sevincini ikiqat etmişdi. Evdə sevinənlərdən biri anası Şahbikə, biri də gələcəkdə mənəvi atası olacaq qardaşı Hüseynqulu idi. Hüseynqulu ona gələcək həyatında kömək edəcəkdi. Ona həm qardaş, həm də atası olacaqdı.

Bəli, Cəfər Cabbarlı 1899-cu ilin 20 martında, Xızıdakı köhnə, tanınmayan bir daxmada bahar oğlu olaraq dünyaya gəlmişdi. Bakıya köçməzdən əvvəl bu ortabab ailənin bir çox üzvü Cəfərə ədəb-ərkan, saz-söz öyrədirdilər. Cəfərə sazı-sözü sevdirənlərdən biri də bibisi Zərnişan idi. Zərnişan aşıq idi. Cəfər Bakıya köçənə qədər onun, Aşıq Zərnişanın nəğmələrini dinləyirdi. Kim bilərdi ki, bu daxmada, bu məhəllədə Xalqın Yazıçısı dünyaya gələcəkdi.

Bəli, artıq vaxt gəlir, çatır. İl 1899 yox, 1903-dür. Cabbarlının ailəsi Bakıya köçür. Lakin, Cabbarlının həyatı uşaq vaxtı elə də yaxşı keçmir. Atası kömürçü Qafarın kömürü onun gözünü kor etmişdi. O, daha körpə Cəfərini doya-doya görə bilməyəcəkdi. Heç iş də görə bilməyəcəkdi. Onun ümidləri sönmüşdü. Ancaq Şahbikənin ümidləri sönməmişdi. O, oğlu Cəfərini gələcəyin şəxsiyyəti kimi görmək istəyirdi. Təsəvvür edin, Qafar Cabbarlı Cəfərin ilk pyesini yazana qədər həyatda qalsaydı, onda bəlkə də, qürur hissi keçirəcəkdi. Lakin, ömrü yetmədi. Gözləri ona çox ağrı verirdi. O, bu ağrılara dözə bilmədi və heç Cabbarlının gəncliyini görə bilmədi. Cabbarlı o dönəmlər mollaxanada çərəkə oxuyurdu. Mollaxana ona bir şey verməyəcəkdi. Yaxşı ki, tez zamanda mollaxanadan çıxmışdı, yoxsa, istedadı mövhumatda itəcəkdi. Onun istedadını mövhumat, çərəkə bitirəcəkdi və o, Maksim Qorki ilə şəxsən tanış olan bani dramaturq yox, mollaların təsiri altında qalan sani (ikinci) molla olacaqdı. Cəfər Cabbarlı 1905-ci ildə Storıy-Poçtovı-25 məktəbində Hacı Məhəmmədhüseyn Bədəlovun sinfində oxuyur. 1908-ci ildə 7-ci Müsəlman-rus məktəbində görkəmli ədibimiz Abdulla Şaiqin tələbəsi olur. Abdulla Şaiq Cəfər Cabbarlının onun sinifində oxuduğu vaxtlardan yazırdı "Xatirələrim" kitabında:

-1910-cu illərdə Cabbarlı Bakı Politexnik Məktəbində təhsil alır.

Sonra 1920-ci ilin 6 mayında Bakı Dövlət Universitetinin (o dönəmlərdə Darülfünun) tibb fakültəsinə qəbul olur.

Cəfər Cabbarlı ömrü-boyu istiqlal və azadlıq uğrunda çarpışıb.

O, 1918-1920-ci illərdə AXC Parlamanının dəftərxanasında çalışıb. O, həm də Dahi və Bani şairimiz, dramaturqumuz Hüseyn Cavidlə və onun qardaşı, marksist inqilabçı, Naxrevkomun sədri, həcv yazan, dəyərli satirist Əlirza Cavid (Rasizadə) ilə bir amal uğrunda Dəftərxanada çalışmışdır.

Onun istiqlala aid çoxlu əsərləri var. Məsələn, 28 aprel 1920-ci ildə o, bir şeir yazır. Şeir belədir:

Gözümdə büsbütün aləm məzara bənzərkən,
Uçar qaranlıq üfüqlərdə bir qanadlı ziya.
Könül xərabəsi göz yaşlarında inlərkən,
Gülər dumanlı fəzalarda bir mələksima.

Birinci bənddən aydın olur ki, Cabbarlı AXC-ni qanadlı ziya adlandırır. Məzara bənzəyən aləm Azərbaycandır. O, Mart Soyqırımına, ölkədə yox (Azərbaycan o vaxt ölkə deyil, ayrıca bölgə idi), bölgədə baş alıb gedən cəhalətə, camaatın susmasına, susmayanların isə kafir olmasına görə məzar olub getmişdi. Məzarda isə yurdun igid övladları günahsız şəkildə uyuyurdu. Axırıncı bənd isə belədir:

Sönər... susar... qara bir yoxluğun soyuq nəfəsi,
Zavallı fikrimi sarsıb da dondurar... yatırır...
Sonunda bir qocaman bayquşun zəhərli səsi,
Sönük xiyalimə min dürlü sorğular gətirir.

Sonuncu bəndin sonuncu 2 misrasından aydın olur ki, Cabbarlı Sovet hökumətinin işğalçı qışqırığını qocaman bayquşun zəhərli səsi adlandırır. Halbuki, Sovet hökuməti Müsavata bayquş deyirdi. Halbuki, sosialistləri bayquş adlandıran Cabbarlı Azərbaycan ədəbiyyatında sosialist realizminin banisi idi.

Cəfər Cabbarlı "Gülzar" əsərində Gülzarı xəyanətkar qadın kimi qələmə alır. Bu xəyanət azərbaycanlıların 1920-ci ildə AXC-yə xəyanət etməsidir. Sonra Gülzarın əri Gülzarı tərk edir və bu Azərbaycanlıların üsyan edərək müstəqil olacağına işarədir.

Bir işarə də Cəfər Cabbarlının Sovet dönəmində də məşhur olan,

Asəf Zeynallının mahnı bəstələdiyi Ölkəm şeiridir. Şeiri bəlkə də,

Çoxumuz əzbər bilirik. Lakin, bir unudulmuş bəndi var ki, neçə ildir heç yerdə, hətta mahnıda da söylənilmir. Bu bəndi isə filologiya elmləri doktoru, professor Asif Rüstəmli aşkar etmişdir.

Şeirin unudulmuş bəndi belədir:

Yanar dağlarında yalov coşarmış,
Ona tapınmaya ellər qoşarmış,
Bir çağ varmış, ölkəm azad yaşarmış,
Bu yollarda izləri var ölkəmin.

Məhz bu bənd musiqidə səslənsəydi, Cabbarlı 1937-ci ildən sonra yaşaya bilməzdi. Eyni hal Əhməd



Cavadda da olmuşdu. Lakin, Cəfər Cabbarlı mahir şəkildə bunu gizləyə bilmişdir. Əhməd Cavad "Göygöl" şeirindəki aypara sözünə görə həbs olunmuşdu. Lakin, bu bənd çox deyilmədiyi üçün həbs səbəbi bu bənd olmur. Amma, yenə də Cəfər Cabbarlı həbs olunur. Bunun səbəbi isə sosialist bayquşlarının gözlərinin Cəfər Cabbarlını götürməməsi idi. Nəzərinizə çatdırım ki, hətta, bu bayquşlar o vaxtki sədrləri olan Səməd ağa Ağamalıoğlundan da bunu, yəni, Cəfər Cabbarlının həbs olunduğunu gizləmişdilər. Ağamalıoğlu bu xəbəri sonradan eşitmişdi.

Cəfər Cabbarlının həbs olunmasının digər səbəbi isə istiqlalçı Mirzə Bala Məhəmmədzadə və Əbdül Vahab Yurdsevər ilə dost olub onun istiqlalçı fikirlərini yayması, Gizli İstiqlal adlı qəzetin Sovet dönəmində məhz onun evində hazırlanması idi. Cəfər Cabbarlı böyük bir fədakar idi. Heç kəs Sovetlərin təzə qurulduğu və qızğın olmağa başladığı dönəmdə Cabbarlının etdiyini edə bilməzdi. Heç kəs öz evini Gizli İstiqlal qəzetinin baş qərargahı edə bilməzdi.

Cəfər Cabbarlı Cabbarzadə soyadı qəbul etdiyinə görə həbsdən azad olunur. O, bu vaxtlarda o qədər şey edə bilərdi ki... Öz evində olardı, öz Sonasını görərdi... Ancaq, təəssüflənmək olmazdı, çünki, Cabbarlı həbsdən azad olunmuşdu. Ancaq, Cabbarlı yenidən həbs olunur. Təkcə Cabbarlı yox, onun evində yazan 20 nəfər İstiqlalçımız da həbs olunur. Əbdül Rəhman Dai və Nəsrulla İsrafilov kimi İstiqlalçılarımız repressiya qurbanı olur. Lakin, Cəfər Cabbarlı bu repressiyadan yenə qurtula bilir. Müstəntiq Yoldaş Aylasyeviç Cəfər Cabbarlının günahsız olduğunu yazır və onun islah evindən azad olunmasını əmr edir. Görünür, Allah Cabbarlını saxlamışdı ki, Yurda gərəkli olduğunu bildirsin. Allah Cabbarlını saxlamışdı ki, yeni-yeni yaratdıqlarıyla Azərbaycana yeni bahar gətirsin.

Cabbarlı bundan sonra daha həbs olunmur. Cabbarlı bundan sonra 1937-ci ildə həbs olacaqdı, yaxşı ki... olmadı...

Artıq Cəfər Cabbarlının yaradıcılığı qışını bitirir, baharını yaşayır, Cabbarlı yeni-yeni işlərə başlayır.

Cəfər Cabbarlı əvvəlcə teatrda yazıçı, tərcüməçi olaraq işini davam etdirir. Daha, o, 1923 adlı keçid dönəmini bitirib, o, daha, hələ püxtələşməyən, yeni pyesi təzə tamaşaya qoyulan Cəfər deyildi. Heç teatr da artıq şeytan əməli deyildi. Teatr 3-5 aktyorun bir yerdə birləşdiyi bir incəsənət daxması deyildi. Cəfər püxtələşmiş, dahi olmaya başlayan Cəfər Cabbarlı, teatr isə çoxlu yaşlı və gənc aktyorların yetişdiyi Dadaş Bünyadzadə adına Dövlət Bədaye Teatrı adlı incəsənət sarayı idi.

1915-ci ildən 1935-ci ilə qədər o, bir çox pyes yazmışdı. Hələ uşaq yaşından qəzetlərə şeir yazan Cəfər Cabbarlının ilk pyeslərindən biri də "Vəfalı Səriyyə" olmuşdur. Onun "Vəfalı Səriyyə"ylə birlikdə yeni əsərləri "Nəsrəddin Şah", "Solğun çiçəklər" əsərləri 1916-cı ildə İsmailiyyə Sarayında və Aşqabadda tamaşaya qoyulmuşdur.

Bu pyeslərin yazılma tarixindən bəlli olur ki, Cabbarlı daha ali təhsil almadan pyeslər yazmağa başlayıb. Yəni, ali təhsil almayan bir adamın istedadına hamı teatrın pərdələrində baxmışdır.

Cabbarlının ilk əsərlərindən "Vəfalı Səriyyə", "Sevil" və "Almaz" pyesləri kimi irihəcmli deyil, lakin, 15 yaşlı bir gəncə görə bu pyes əla bir pyesdir. Cabbarlı ilk pyesində daha çox romantikaya müraciət etmişdir. Çünki, Vəfalı Səriyyə əsərində Səriyyə Rüstəmi sevir.

Cabbarlı həm də roman yazmışdır. Onun "Kazım bəy" adlı bir romanı da vardır. Həmin romanı filologiya elmlər doktoru Asif Rüstəmli tədqiqatları əsasında tapmışdır. Roman ərəb əlifbası ilə yazılmışdır və 200-ə yaxın səhifəsi vardır.

Cəfər Cabbarlı əsərlərində Osmanlının bizlərə köməyindən və Osmanlının öz müharibələrində döyüşkənliyindən də bəhs etmişdir. Həmin əsərlərdən "Bakı müharibəsi", "Ədirnə fəthi", "Tripoli müharibəsi" kimi əsərləri itməsəydi, sosialistlərin onu tutmasına daha bir əsas olacaqdı və taleyi Müşfiqin, Cavadın və Cavidin taleyinə bənzəyəcəkdi. O, Nuri Killigillə belə görüşmüşdü.

Cümhuriyyət parlamanı (AXC Parlamenti) Bakıya köçürülərkən parlamana Bakı Müharibəsində bizə yaxından kömək edən qardaş Osmanlı Paşası Nuru Killigil dəvət olunmuşdu. Parlamanda dəftərxana çalışanı kimi Cabbarlı da vardı. O, müharibə dönəmində bir əsər də yazmışdı. Parlamanın iclasında Cabbarlı Nuru Killigillə görüşdü və Bakı müharibəsi əsərini Nuri Killigilə hədiyyə etdi. Nuri Killigil sevindi və hədiyyəni qəbul etdi. Parlamanda eyni zamanda Cavid və onun qardaşı Əlirza Rasizadə də vardı. Nuri Killigil onlarla da görüşmüşdü.

"Trablis müharibəsi" pyesində Birinci Dünya müharibəsi zamanı Trablisdə Osmanlı ilə İtaliya arasında baş vermiş müharibə zamanı baş verənlərdən danışılır.

Müharibədə Türkiyənin qurucusu olmuş Mustafa Kamal Atatürk və Nuri Killigilin qohumu Ənvər Paşa da iştirak etmişdir. Ancaq, müharibədə İtaliya qalib gəlmişdir və müharibə Tripolinin İtaliyaya verilməsi ilə bitmişdir.

Müstəqilliyimizi itirdikdən sonra Cabbarlı çoxlu tanınmış əsərlərini yazmışdır. Onun bu dönəmləri ən parlaq dönəmləri sayılır. Lakin, onu da deyim ki, onun "Aydın" kimi çox tanınmış pyesi 1919-cu ildə müstəqilliyimizin bir illiyində yazılmışdır. Bu pyes Cabbarlı yaradıcılığında uğurların başlanğıcı idi.

O, bu dönəmlərdə "Oqtay Eloğlu" (1921), "Gülzar" (1924), "Dilarə" (1924), "Dilbər" (1927)"Od gəlini" (1928), "Sevil" (1928), "Almaz" (1931), "Yaşar" (1932), "Dönüş" (1932) kimi əsərlər yazmaqla yanaşı həmdə tərcümə də etmişdir.

"Oqtay Eloğlu" əsərində eşqin qurbanı olmuş aktyor Oqtay Eloğlundan və onun sevdiyi Firəngizdən bəhs olunur. Oqtay yenilikçi və novator fikirli bir aktyordur. O, Azərbaycanda teatrı inkişaf etdirə bilərdi. Lakin, Firəngizi sevən Oqtay Eloğlu səhnəyə çıxan Firəngizi bıçaqlayaraq öldürür. Oqtay Eloğlu eşqin qurbanına çevrilir.



*07.04.2019*

*(Davamı var)*

***Sevindik NƏSİBOĞLU***